# UCA DAĞLAR BAŞINDA

**Allegretto**




Uca dağlar başında səslərəm səni,
İki gözümün üstündə bəslərəm səni.
Ay gülə-gülə, yar gülə-gülə,
Mən aşiq oldum bir şirin dilə.

Uca dağlar başında ceyran yol eylər,
Sənin kimi yarı olan özgə yarı neylər.
Ay gülə-gülə, yar gülə-gülə,
Mən aşiq oldum bir şirin dilə.

Uca dağlar başında bir sürü qoyun,
Xınalı əllərimi qoynuna qoyum.
Ay gülə-gülə, yar gülə-gülə,
Mən aşiq oldum bir şirin dilə.